**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT MİQRASİYA XİDMƏTİ**

**“10” avqust 2016-cı il** **№ 9**

# Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 2012-ci il 22 oktyabr tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Təşkilat-nəzarət baş idarəsi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə”nin 16.7-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**Q Ə R A R A A L I R:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 2012-ci il 22 oktyabr tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Təşkilat-nəzarət baş idarəsi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı redaksiyada 2.1.2-1-ci və 2.1.2-2-ci yarımbəndlər əlavə edilsin:

“2.1.2-1. Xidmətin məhkəmə işlərinin aparılmasını həyata keçirir;”;

“2.1.2.-2. Xidmətin fəaliyyətini təhlil edir;”;

1.2. aşağıdakı məzmunda 3.1.11-1-ci və 3.1.11-2-ci yarımbəndlər əlavə edilsin:

“3.1.11-1. Xidməti iddiaçı, cavabdeh, zərərçəkmiş və ya üçüncü şəxs qismində bütün məhkəmə instansiyalarında təmsil etmək, məhkəmə qərarlarından şikayətlərin verilməsini təmin etmək;

3.1.11-2. miqrasiya orqanlarının məhkəmələrdə iddiaçı, cavabdeh qismində iştirak etdiyi işləri təhlil etmək, icmallaşdırmaq və bu barədə Xidmətin rəhbərliyinə rüblük hesabat təqdim etmək;”;

1.3. 4.1.5-ci və 5.8.10-cu yarımbəndlərdə “bəndində” sözü “yarımbəndində” sözü ilə əvəz edilsin;

1.4. 5-ci hissə üzrə:

1.4.1. 5.4-cü bəndin mətni həmin bəndin ikinci cümləsi hesab edilsin və aşağıdakı məzmunda birinci cümlə əlavə edilsin:

“Təşkilat idarəsinin rəisi eyni zamanda Baş idarə rəisinin müavinidir.”;

1.4.2. 5.12-ci bəndində “Baş mütəxəssis” sözləri “Kiçik inspektor-kargüzar” sözləri ilə əvəz edilsin;

1.5. 6.2.9-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.2.10-cu və 6.2.11-ci yarımbəndlər əlavə edilsin:

"6.2.10. bu Əsasnamənin 3.1.11-1-ci və 3.1.11-2-ci yarımbəndlərində nəzərdə tutulan vəzifələri yerinə yetirmək;

6.2.11. Baş idarənin fəaliyyət istiqamətləri üzrə idarəyə həvalə olunan digər vəzifələri yerinə yetirmək.".

Qərar qəbul edildiyi gündən üç gün keçənədək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunsun.

**Azərbaycan Respublikası**

**Dövlət Miqrasiya Xidmətinin rəisi**

**II dərəcəli dövlət miqrasiya**

**xidməti müşaviri** **Firudin Nəbiyev**